AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin*
*22.08 2024-cü il tarixli*
*3-28/3-2-5407/2024 nömrəli əmrinə*
*104 nömrəli əlavə*

ƏSLİ İLƏ DÜZDÜR

AZƏRBAYCAN RESPUBLİKASI ELM və TƏHSİL NAZİRLİYİ
VƏTƏNDAŞLARA XİDMƏT VƏ ƏRİZƏLƏRLƏ İŞ ŞÖBƏSİ

**"Xalçaçı"**

**İxtisası üzrə**

**Təhsil Proqramı (Kurikulum)**

**Bakı – 2024**

## “Xalçaçı” İxtisası üzrə Təhsil Proqramı (Kurikulum)

1. **Təsnifat üzrə ixtisasın şifri (kodu):** 030119
2. **Məşgulluq təsnifatında kodu:** 7318
3. **Milli kvalifikasiyalar səviyyəsi:** 4
4. **Peşə təhsili pilləsi:** Texniki peşə təhsili
5. **İxtisasın qrupu:** Xalq bədii yaradıcılığı
6. **İxtisasın əhatə etdiyi sahələr:** Sənətşünaslıq, mədəniyyət və incəsənət
7. **Qəbul şərtləri:** Tam orta təhsil
8. **Tədris müddəti:** Tam orta təhsil bazasından 1 il, ümumi orta təhsil bazasından 2 il
9. **Attestasiya:** Tələbələrin ixtisas modulları üzrə qiymətləndirilməsi “Peşə təhsili pilləsində təhsilalanların attestasiyasının aparılması Qaydası”na, ümumtəhsil fənləri üzrə attestasiya “Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (yekun qiymətləndirmə (attestasiya) istisna olmaqla) aparılması Qaydası”na uyğun həyata keçiriləcək.

**Peşənin təsviri, xüsusiyyəti, inkişaf perspektivləri**

Xalçaçı alət və avadanlıqlardan düzgün formada istifadə edərək ərişçəkmə, küçü götürmə, dəhnədöymə prosesini həyata keçirir, təhlükəsizlik və sanitar-gigiyenik qaydalara uyğun olaraq əl üsulu ilə xovlu və xovsuz xalça və xalça məmulatlarını hazırlayır. Xalçaçı üzərində müxtəlif naxış elementləri və təsvirlərlə olan xovlu və xovsuz xalçaların toxunma,iş prinsiplərini müvafiq xammaldan, alət və avadanlıqlardan təhlükəsiz istifadə qaydalarını bilməli və toxuma əməliyyatlarını texniki ardıcıllıqla yerinə yetirməlidir.

**Məşğulluq imkanları:**

Təhsili başa vurduqdan sonra məzun, fərdi olaraq kiçik sahibkar kimi və xalça emalatxanalarında çalışa bilər. Təlim və təcrübə keçməklə və müvafiq ali təhsil almaqla bu peşə ilə əlaqədar menecer kimi vəzifələrə yüksəlmək imkanları vardır.

**Peşə üzrə səriştə səviyyəsi:**

| Biliklər | Bacarıqlar | Müstəqillik və məsuliyyət |
|---|---|---|
| • Azərbaycanda xalçaçılığın tarixi və xalçaların növləri barədə biliklər;<br>• Adi və yarımmexanikləşdirilmiş xalça dəzgahlarının quruluşu və iş prinsipi haqqında;<br>• Çeşnini hesablama;<br>• Toxuma əməliyyatlarının ardıcıllığı;<br>• Əriş, kücü və dəhnədöymə bilikləri;<br>• Xalça sıxlığını tənzimlənməsi;<br>• İlməvurma , qıraqdolama , xovların döyülməsi, qırxılma qaydaları;<br>• İlpliyin növləri (yun, ipək) və onların təyinatı;<br>• Xalçanın keyfiyyətinə nəzarət metodları;<br>• Təhlükəsizlik qaydaları;<br>• İstifadə olunan alət və avadanlıqların iş prinsipi;<br>• Bizneslə əlaqədar ilkin biliklər;<br>• İxtisas üzrə terminlər;<br>• Standartlaşma və markalama barədə məlumat;<br>• İT proqramları üzrə biliklər; | • Dəzgahda xalçanın toxunması;<br>• Xammalı seçmək;<br>• Əl ilə toxuculuq üçün müvafiq alətlərdən istifadə etmək;<br>• Xalçanın toxunma prosesində ərişçəkmə, küçü götürmə, dəhnədöymə proseslərini həyata keçirmək;<br>• İş prosesində dəzgahda baş verən nasazlıqları aradan qaldırmaq;<br>• Toxuma prosesini səmərəli şəkildə həyata keçirmək;<br>• Xalça sıxlığını tənzimlənmək;<br>• İlmə vurma, qıraqdolama və xovların oturdulma (döyülmə), qırxılma qaydalarını bacarmaq;<br>• Toxuma prosesində yaranan problemləri aradan qaldırmaq;<br>• Əmək təhlükəsizliyi və sağlamlığın qorunması qaydalarına riayət etmək; | • Xalçanın toxunmasında iş üsullarını tətbiq etmək;<br>• Effektiv və operativ olaraq işləmək;<br>• Keyfiyyət üzrə məlumatlı olmaq;<br>• Nəzarət altında işləyərək, kiçik səlahiyyətlərə malik olmaq;<br>• Təcrübə tələb edən fəaliyyətlərin yerinə yetirilməsi və əlaqələndirilməsi üçün məsuliyyət daşımaq;<br>• Öz fəaliyyətlərini planlaşdırmaq və nəticələri barədə hesabat vermək;<br>• Digər şəxslərlə əməkdaşlıq etmək və komandada işləmək;<br>• Etibarlı,məsuliyyətli olmaq və işə dair öhdəlikləri yerinə yetirmək;<br>• Peşəkarlıq səviyyəsini daimi artırmaq üçün ömürboyu öyrənməyə meyilli olmaq; |

**Peşə üçün spesifik tələblər:**

İş adətən qapalı şəraitdə  emalatxanalarda həyata keçirilir. Xalçaçı, estetik dünya görüşə malik və  yaradıcı olmalıdır. Stresə davamlı, operativ və düzgün qərar qəbul etmək, işin xüsusiyyətindən asılı olaraq həm açıq, həm də qapalı mühitdə, dəyişkən iş saatları və gərgin iş zamanı uzadılmış qrafiklə işləmək tələb olunur.

**İxtisası tədris edəcək pedaqoji heyətə qoyulan tələblər:**

"Xalçaçı" ixtisası üzrə  mühəndis-pedaqoji heyət üzvünün müvafiq peşə-ixtisas sahəsi üzrə baza təhsili (ali, orta ixtisas) və ixtisas üzrə stajı azı 5 il, istehsalat və ya 1 il pedaqoji təcrübəsi olmalı, tədris etdiyi modullar (istehsalat təlimi ustalarının təhkim olunduğu qrupun) baza ixtisasına uyğun gəlməlidir. Pedaqoji heyət üzvü tələbələr və həmkarları ilə ünsiyyət qurmaq bacarığına, əlaqələndiricilik, istiqamətvericilik xüsusiyyətlərinə malik olmalıdır. Tələbələrin ixtisasları üzrə dövrün tələbatına uyğun elmi-nəzəri bilikli mütəxəssis, tədqiqatçı kimi yetişmələrinə çalışmalı, müasir texnika, yeni istehsal və pedaqoji, innovativ təlim metodlarından, müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etmək bacarığı aşılamalıdır.

## İxtisasın tədris planı - modulların siyahısı

| İxtisasın adı: Xalçaçı | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Təhsil müddəti: 1 il (tam orta təhsil)** | | | | | | | | |
| **№** | **Bölmələr, təhsil sahələri, modullar** | **saatların miqdarı** | **Həftəlik dərs saatlarının miqdarı** | | | | | |
| | | | **I** | **II** | | | | **məsləhət** |
| | | | **15** | **10** | **3** | **9** | **1** | |
| | **2** | **3** | **4** | **6** | **7** | **8** | **9** | |
| **1** | Fiziki tərbiyə | 25 | 1 | 1 | | | | |
| **2** | Xarici dildə ünsiyyət | 45 | 3 | | | | | |
| **3** | Şəxsi inkişaf və karyera planlaşdırması | 30 | | 3 | | | | |
| **4** | Sahibkarlıq | 30 | 2 | | | | | |
| **5** | İKT-dən istifadə | 45 | 3 | | | | | |
| | **Baza modulları üzrə cəmi** | **175** | **9** | **4** | | | | |
| | **Peşə-ixtisas modulları, nəzəri** | | | | | | | |
| **6** | Xalça istehsalın tarixi və texniki avadanlıqların istismarı | 60 | 4 | | | | | |
| **7** | Xalçanın bədii tərtibatı | 60 | 4 | | | | | |
| **8** | Ərişçəkmə, küçü götürmə və dəhnədöymə | 60 | 4 | | | | | |
| **9** | Xovlu və xovsuz xalçanın toxunması | 120 | 4 | 6 | | | | |
| **10** | Xalçanın bərpası | 50 | | 5 | | | | |
| **11** | Xalçanın təhvil verilməsi | 60 | | 6 | | | | |
| | | | | | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | **Peşə-ixtisas modulları, nəzəri cəmi** | **410** | **16** | **17** | | | | |
| | **İstehsalat təlimi (praktik modullar)** | **395** | **10** | **14** | **35** | **0** | | |
| | **İstehsalat təcrübəsi** | **360** | | | | 40 | | |
| | **Tələbələrin maksimum məcburi dərs yükü** | **1340** | **35** | **35** | **35** | **40** | | |
| | **Məsləhət saatları** | **20** | | | | | | **20** |
| | **YEKUN** | **1360** | | | | | | |

| **İxtisasın adı: Xalçaçı (dual təhsil)** | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Təhsil müddəti: 1 il (tam orta təhsil)** | | | | | | | | |
| **№** | **Bölmələr, təhsil sahələri, modullar (fənlər)** | **saatların miqdarı** | **Həftəlik dərs saatlarının miqdarı** | | | | | |
| | | | **I** | **II** | | | | **Məsləhət** |
| | | | **15** | **15** | **7** | **1** | | |
| | **2** | **3** | **4** | **6** | **8** | **9** | | **10** |
| **1** | İKT-dən istifadə | 45 | 3 | | | | | |
| **2** | Peşə etikası | 30 | 2 | | | | | |
| **3** | Sahibkarlıq | 45 | | 3 | | | | |
| **4** | Şəxsi inkişaf və karyera planlaşdırması | 30 | 2 | | | | | |
| | **Baza modulları üzrə cəm:** | **150** | **7** | **3** | **0** | **0** | | **0** |
| | | | | | | | | |
| | **Peşə-ixtisas fənləri (modulları), nəzəri** | **375** | **14** | **11** | **0** | **0** | | **0** |
| **5** | Xalça istehsalın tarixi və texniki avadanlıqların istismarı | 30 | 3 | | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **6** | Xalçanın bədii tərtibatı | 45 | 4 | | | | | |
| **7** | Ərişçəkmə, küçü götürmə və dəhnədöymə | 45 | | 3 | | | | |
| **8** | Xovlu və xovsuz xalçanın toxunması | 60 | 3 | 4 | | | | |
| **9** | Xalçanın bərpası | 105 | 2 | 2 | | | | |
| **10** | Xalçanın təhvil verilməsi | 90 | 2 | 2 | | | | |
| | | | | | | | | |
| | **İstehsalat təlimi** | **420** | **14** | **14** | | | | |
| | | | | | | | | |
| | **İstehsalat təcrübəsi** | **400** | | **8** | **40** | | | |
| | | | | | | | | |
| | **Tələbələrin maksimum məcburi dərs yükü** | **1345** | **35** | **36** | **40** | | **0** | **0** |
| | **Məsləhət** | **20** | | | | | | 20 |
| | **YEKUN** | **1365** | | | | | | |

**Qeyd:**

1) Dual təhsil proqramları tətbiq edilən peşə təhsil müəssisələri və qrupların siyahısı Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən müəyyən edilir.
2) Qarşılıqlı razılıq və maddi-texniki baza imkan verdikdə istehsalat təlimi tam olaraq və ya bir hissəsi işəgötürən müəssələrdə təşkil edilə bilər.

| | | | |
|---|---|---|---|
| **İxtisasın adı: Xalçaçı (ümumi orta təhsil)** | | | |
| **Təhsil müddəti: 2 il** | | | |
| **№** | **Bölmələr, təhsil sahələri,** | **saatların** | **yarımillər üzrə həftəlik dərs** |

| | modullar (fənlər) | miqdarı | saatlarının miqdarı | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | I kurs | | | II kurs | | | | məsləhət saatları |
| | | | I | II | | I | II | | | |
| | | | **15** | **20** | **3** | **15** | **10** | **12** | **1** | |
| **1** | Çağırışaqədərki hazırlıq | 60 | 1 | 1 | | 1 | 1 | | | |
| **2** | Fiziki tərbiyə | 60 | 1 | 1 | | 1 | 1 | | | |
| **3** | Ana dilində ünsiyyət | 30 | 2 | | | | | | | |
| **4** | Xarici dildə ünsiyyət | 45 | 3 | | | | | | | |
| **5** | İKT-dən istifadə | 45 | 3 | | | | | | | |
| **6** | Hesablama əməliyyatları | 30 | | | | 2 | | | | |
| **7** | Sahibkarlıq | 40 | | 2 | | | | | | |
| **8** | Peşə etikası | 40 | | 2 | | | | | | |
| **9** | Şəxsi inkişaf və karyera planlaşdırması | 30 | | | | | 3 | | | |
| **10** | Estetika və mədəni özünüifadə | 30 | | | | 2 | | | | |
| | | **410** | **10** | **6** | **0** | **6** | **5** | | | |
| | | | | | | | | | | |
| | **Peşə-ixtisas fənləri (modulları), nəzəri** | **895** | **14** | **15** | **0** | **15** | **16** | | | |
| **11** | Xalça istehsalın tarixi və texniki avadanlıqların istismarı | 115 | 5 | 2 | | | | | | |
| **12** | Xalçanın bədii tərtibatı | 125 | 3 | 4 | | | | | | |
| **13** | Ərişçəkmə, küçü götürmə və dəhnədöymə | 180 | 4 | 3 | | 2 | 3 | | | |
| **14** | Xovlu və xovsuz xalçanın toxunması | 190 | 2 | 3 | | 4 | 4 | | | |
| **15** | Xalçanın bərpası | 185 | | 3 | | 5 | 5 | | | |
| **16** | Xalçanın təhvil verilməsi | 100 | | | | 4 | 4 | | | |
| | | 0 | | | | | | | | |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **İstehsalat təlimi (praktik modullar)** | **900** | **11** | **14** | **35** | **14** | **14** | **0** | | |
| | | | | | | | | | | |
| | **İstehsalat təcrübəsi** | **480** | | | | | | 40 | | |
| | | | | | | | | | | |
| | **Tələbələrin maksimum məcburi dərs yükü** | **2685** | **35** | **35** | **35** | **35** | **35** | **40** | **0** | **0** |
| | **Məsləhət** | **20** | | | | | | | | 20 |
| | **YEKUN** | **2705** | | | | | | | | |

| **İxtisas: Xalçaçı** | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Təhsil müddəti: 3 il (ümumi orta təhsil bazası)** | | | | | | | | | | |
| **№** | **Modullar/Fənlər** | **Saatların miqdarı** | **Kurslar və yarım illər üzrə həftəlik saatların miqdarı** | | | | | | | **məsləhət** |
| | | | **I kurs** | | **II kurs** | | **III kurs** | | | |
| | | | **18** | **20** | **18** | **20** | **15** | **10** | **12** | |
| | **Ümumtəhsil fənləri** | | | | | | | | | |
| **1** | Azərbaycan dili | 268 | 3 | 3 | 3 | 3 | 2 | 1 | | |
| **2** | Xarici dil | 334 | 4 | 4 | 4 | 4 | 2 | | | |
| **3** | Riyaziyyat | 344 | 4 | 4 | 4 | 4 | 2 | 1 | | |
| **4** | İnformatika | 152 | 2 | 2 | 2 | 2 | | | | |
| **5** | Azərbaycan tarixi | 76 | 1 | 1 | 1 | 1 | | | | |
| **6** | Fizika | 76 | 1 | 1 | 1 | 1 | | | | |
| **7** | Biologiya | 76 | 1 | 1 | 1 | 1 | | | | |
| **8** | Coğrafiya | 76 | 1 | 1 | 1 | 1 | | | | |
| **9** | Kimya | 76 | 1 | 1 | 1 | 1 | | | | |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **10** | Fiziki tərbiyə | 152 | 2 | 2 | 2 | 2 | | | | |
| **11** | Çağırışaqədərki hazırlıq | 101 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| | **Ümumtəhsil fənləri üzrə cəm:** | **1731** | **21** | **21** | **21** | **21** | **7** | **3** | **0** | |
| | | | | | | | | | | |
| | **Baza modulları** | | | | | | | | | |
| **12** | Peşə etikası | 40 | | | | 2 | | | | |
| **13** | Şəxsi inkişaf və karyera planlaşdırılması | 30 | | | | | | 3 | | |
| **14** | Sahibkarlıq | 40 | | 2 | | | | | | |
| **15** | İKT-dən istifadə | 45 | | | | | 3 | | | |
| | **Baza modulları üzrə cəm:** | **155** | **0** | **2** | **0** | **2** | **3** | **3** | **0** | |
| | | | | | | | | | | |
| | **İxtisas modulları** | **767** | **7** | **5** | **7** | **5** | **11** | **15** | | |
| **16** | Xalça istehsalın tarixi və texniki avadanlıqların istismarı | 94 | 3 | 2 | | | | | | |
| **17** | Xalçanın bədii tərtibatı | 112 | 1 | 1 | 3 | 1 | | | | |
| **18** | Ərişçəkmə, küçü götürmə və dəhnədöymə | 169 | 2 | 1 | 1 | 1 | 3 | 3 | | |
| **19** | Xovlu və xovsuz xalçanın toxunması | 182 | 1 | 1 | 3 | 3 | 2 | | | |
| **20** | Xalçanın bərpası | 135 | | | | | 5 | 6 | | |
| **21** | Xalçanın təhvil verilməsi | 75 | | | | | 1 | 6 | | |
| | | | | | | | | | | |
| | **İstehsalat təlimi** | **882** | **7** | **7** | **7** | **7** | **14** | **14** | | |
| | | | | | | | | | | |
| | **İstehsalat təcrübəsi** | **480** | | | | | | | **40** | |
| | | | | | | | | | | |
| | **Yekun: Tələbələrin məcburi maksimum dərs yükü** | **4015** | | | | | | | | |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **Məsləhət saatları** | **20** | | | | | | | | 20 |
| | | | | | | | | | | |
| | **Yekun** | **4035** | **35** | **35** | **35** | **35** | **35** | **35** | **40** | |

## Modulların spesifikasiyası

| |
|---|
| **Modulun adı: Ana dilində ünsiyyət** |
| **Modulun kodu: 1** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə peşəkar ünsiyyəti təhlil etməyi, peşəkar məsələləri ilə bağlı şifahi və yazılı şəkildə ünsiyyət qurmağı və peşəyə dair yazılı materiallardan istifadə etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Peşəkar ünsiyyəti təhlil edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Gələcək iş yerində kimlərlə ünsiyyət quracağını araşdırır. |
| 2. Gələcək iş yerinindən kənarda kimlərlə ünsiyyət quracağını araşdırır. |
| 3. Gələcək iş yerində istifadə edilən səciyyəvi ünsiyyət üsullarını təsvir edir. |
| 4. Gələcək iş yerində səciyyəvi ünsiyyət problemlərini qiymətləndirir. |
| **Təlim nəticəsi 2: Peşə məsələləri ilə bağlı şifahi ünsiyyət qurur.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Peşəsindəki səciyyəvi ünsiyyəti təhlil edir. |
| 2. Peşə məsələləri ilə bağlı şifahi təqdimat verir. |
| 3. Səmərəli şifahi ünsiyyəti təsvir edir. |
| **Təlim nəticəsi 3: Peşə məsələləri ilə bağlı yazılı ünsiyyət qurur.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Peşəsindəki səciyyəvi yazılı ünsiyyəti təhlil edir. |
| 2. Daxili ünsiyyətin yazılı nümunələrini təqdim edir. |
| 3. Səciyyəvi yazılı xarici ünsiyyətin nümunələrini təqdim edir. |
| **Təlim nəticəsi 4: Peşə məsələləri ilə bağlı yazılı materiallardan istifadə edir.** |

| Qiymətləndirmə meyarları |
| --- |
| 1. Peşəkar istifadə üçün müvafiq Azərbaycan mediasını müəyyən edir. |
| 2. Müvafiq peşə məsələləri ilə bağlı yazılı materialları təhlil edir. |
| 3. Müvafiq peşə ilə bağlı materialı şifahi olaraq təqdim edir. |
| 4. Peşə ilə bağlı yazılı materialın təqdimatını qiymətləndirir. |

| |
| --- |
| **Modulun adı: Xarici dildə ünsiyyət** |
| **Modulun kodu: 2** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə gündəlik ünsiyyət zamanı lazım olan sözlərdən sərbəst şəkildə istifadə etməyi bilir, özünü aydın ifadə etməyi, və eləcə də müxtəlif sahələrə uyğun terminologiyalar tətbiq etməyi bacarır. |
| **Təlim nəticəsi 1:** Gündəlik məsələlər, təhsil, iş, iş yerində sağlamlıq və təhlükəsizlik mövzularında ünsiyyət qurmağı və özünü ifadə etməyi bacarır. |
| **Qiymətləndirmə meyarları** |
| 1. Gündəlik həyatda öz fikirlərini sadə cümlələrlə ifadə edir. |
| 2. Təhsil mövzusu ətrafında olan mətnləri təhlil edir. |
| 3. İş həyatında istifadə olunan əsas anlayışlardan istifadə edərək öz sahəsini izah edir. |
| 4. İş yerində sağlamlıq və təhlükəsizlik qaydalarını xarici dildə sadalayır. |
| **Təlim nəticəsi 2:** Gündəlik məsələlər üzrə baza səviyyəsində ünsiyyət qurmağı bacarır. |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müxtəlif ölkələrə səyahətlə bağlı müzakirələrdə iştirak edir. |
| 2. Ətraf mühitlə bağlı ilkin anlayışları izah edir. |
| 3. Maliyyə məsələləri ilə bağlı mövzularda ünsiyyət qurur. |
| 4. Gündəlik xəbərlərlə bağlı fikir mübadiləsi aparır. |
| **Təlim nəticəsi 3:** Müasir texnologiya ilə bağlı terminləri bilir və diskusiyyalar aparmağı bacarır. |
| **Qiymətləndirmə meyarları** |
| 1. Ünsiyyətin müxtəlif növlərini tətbiq edir. |
| 2. Müxtəlif rəqəmsal texnologiyalardan məlumat almaq üçün istifadə edir. |
| 3. Texnologiyanın əhəmiyyətini izah edir. |

| |
|---|
| **Modulun adı: Hesablama əməliyyatları** |
| **Modulun kodu: 3** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə məsələlərin həllində riyazi düşüncə nümayiş etdirməyi, hesablamalar aparmağı, cədvəl və qrafiklər hazırlayıb istifadə etməyi, cəbr qanunlarını tətbiq etməyi və təsviri statistikadan istifadə etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Məsələlərin həllində riyazi düşüncə nümayiş etdirir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Riyazi məsələlərin həllini necə qavradığını izah edir. |
| 2. Məsələlərin həllində nə zaman riyazi üsullardan istifadə edəcəyini müəyyən edir. |
| 3. Riyazi qanunlardan istifadə edərək məsələlərin həlli zamanı hansı texniki vəsaitlərdən istifadə olunacağını tədqiq edir. |
| 4. Praktiki məsələlərdə riyazi termin və modellərdən istifadə etmək üçün nümunələr verir. |
| **Təlim nəticəsi 2: Sadə hesablamalar aparır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. İşdən əlavə vaxt üçün hesablanan bonusları və çıxılmaları nəzərə almaqla əmək haqqından xalis gəliri hesablayır. |
| 2. Faizləri və yenidən ödənişləri (qaytarılmaları) bank krediti üzrə hesablayır. |
| 3. Formul və reseptlər əsasında xammalın müxtəlif qarışıqlarını hesablayır. |
| 4. Sifarişlərlə əlaqəli tipik hesabatlar aparır. |
| 5. Digər tipik işlərlə bağlı hesablamaları yerinə yetirir. |
| **Təlim nəticəsi 3: Sadə qrafik və cədvəllər hazırlayır və məsələlərin həllində onlardan istifadə edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Histoqramdan, nöqtəli diaqramdan, xətli qrafik və piktoqramdan alınan məlumatlardan istifadə edir. |
| 2. Nəzərdən keçirilən işdən alınan informasiyalara əsasən, histoqramlar, nöqtəli diaqramlar, xətti qrafik və ya piktoqramlar qurur. |
| 3. Exceldən istifadə etməklə 2-ci qiymətləndirmə meyarındakı diaqramları qurur. |
| **Təlim nəticəsi 4: Məsələlərin həllində sadə cəbri qaydaları tətbiq edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Mötərizələrdən istifadə etməklə ifadələri aydınlaşdırır və sadələşdirir. |
| 2. Tənliklər və riyazi ifadələrlə düzgün manipulyasiya edir və onları sadələşdirir. |

| |
|---|
| 3. Müvafiq dəyişənlərdən istifadə edərək riyazi funksiyalar qurur. |
| 4. İndexslər qanunu tətbiq edir. |
| 5. Sadə xətti funksiyaları praktiki misallarla izah edir. |
| **Təlim nəticəsi 5: Sadə təsviri statistikadan istifadə edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Çoxluğa qarşı seçim konsepsiyanı izah edir. |
| 2. Mərkəzin tendensiya üzrə məlumatlarını  təsvir edir (moda, median, ədədi orta). |
| 3. Dispersiya ölçüləri olan məlumatları təsvir edir. |
| 4. Histoqram və diaqramları təsvir edir. |

| |
|---|
| **Modulun adı: İKT-dən istifadə** |
| **Modulun kodu: 4** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə işlə əlaqəli məlumatları tapmağı, qiymətləndirməyi və idarə etməyi, müxtəlif müvafiq mediadan istifadə etməklə peşəkarcasına əlaqə qurmağı və əməkdaşlıq etməyi, peşəkar rəqəmsal məzmun hazırlamağı, İT-dən təhlükəsiz şəkildə istifadə etməyi və texnologiyadan istifadə etməklə problemləri həll etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: İnternetdə məlumatları tapmağı, qiymətləndirməyi və idarə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq məlumat göstəricilərini (verilənlər), məlumat və rəqəmsal məzmunu müəyyən edir. |
| 2. Müvafiq məlumat göstəricilərinin, məlumat və rəqəmsal məzmunun keyfiyyətini dəyərləndirir. |
| 3. Rəqəmsal mühitlərdə məlumat göstəricilərini, məlumatları və rəqəmsal məzmunu idarə edir. |
| **Təlim nəticəsi 2: Sosial media vasitələrindən istifadə edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq rəqəmsal texnologiyalar vasitəsilə peşəkarcasına işləyir. |
| 2. Müvafiq rəqəmsal texnologiyalardan istifadə etməklə məlumat göstəricilərini, məlumat və rəqəmsal məzmunu paylaşır. |
| 3. Rəqəmsal texnologiyalar vasitəsilə öz işlərini yerinə yetirir. |
| 4. Müvafiq rəqəmsal texnologiyalar vasitəsilə peşəkarcasına davranır. |

| |
|---|
| 5. Peşəkar şəbəkə vasitəsilə ünsiyyət qurur. |
| 6. Rəqəmsal kimliyi idarə edir. |
| **Təlim nəticəsi 3: Rəqəmsal məzmun hazırlayır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq formatlarda peşəkar rəqəmsal məzmunu hazırlayır. |
| 2. Yeni müvafiq məzmun hazırlanması üçün mövcud rəqəmsal məzmunu inteqrasiya edərək uyğunlaşdırır. |
| 3. Müəlliflik hüququ və lisenziyaların məlumat göstəricilərinə, məlumat və rəqəmsal məzmuna necə tətbiq edilməsini təsvir edir. |
| **Təlim nəticəsi 4: İnformasiya texnologiyalarından təhlükəsiz şəkildə istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq cihazları qoruyur. |
| 2. Şəxsi məlumat və məxfiliyi qoruyur. |
| 3. Cihazlardan istifadə edərkən sağlamlığını qoruyur. |
| 4. Cihazlardan istifadə edərkən ətraf mühiti qoruyur. |
| **Təlim nəticəsi 5: Sadə texniki problemləri həll edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq cihazları işlədərkən yaranmış texniki problemləri həll edir. |
| 2. Texnologiyalardan istifadə etməklə işlə əlaqəli müvafiq ehtiyacları müəyyən edərək, bunların texnoloji həlli yollarını seçir. |
| 3. Öz rəqəmsal bacarılarındakı çatışmazlıqları müəyyən edir. |
| 4. Öz rəqəmsal bacarıqlarındakı çatışmazlıqları aradan qaldırmaq üçün inkişaf planını təqdim edir. |

| **Modulun adı: Şəxsi inkişaf və karyera planlaşdırması** |
|---|
| **Modulun kodu: 5** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə özünü tanımağı və şəxslərarası münasibətləri tənzimləməyi, düşünməyi, problemləri həll edərək qərarları qəbul etməyi, karyera məqsədlərini müəyyən etməyi və müasir iş axtarma və müraciət üsullarınıdan istifadə etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Özünü tanımağı və şəxslərarası münasibətləri tənzimləməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Stresi idarə edir və emosiyaları tənzimləyir. |
| 2. Pozitiv düşünür və özünü qiymətləndirir. |
| 3. Empatiya qurur və dinləyir. |
| 4. Şəxslərarası münasibətləri effektiv idarə edir və mübahisələri həll edir. |
| 5. İnamlı ünsiyyət qurur. |
| **Təlim nəticəsi 2: Düşünməyi və problemləri həll edərək qərarları qəbul etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Məqsədlərini müəyyənləşdirir və qərarları qəbul edir. |
| 2. Problemləri həll edir. |
| 3. Tənqidi və yaradıcı düşünür. |
| 4. İcra edir və davamlılığı təmin edir. |
| **Təlim nəticəsi 3: Karyera məqsədlərini müəyyən edir və müasir iş axtarma və müraciət üsullarından istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Karyera anlayışının mənasını izah edir. |
| 2. Karyera məqsədlərinin müəyyən edilməsi yollarını araşdırır. |
| 3. Müasir iş axtarma və müraciət üsullarından istifadə edir. |
| 4. Peşəkar inkişafın üsul və mərhələlərinə tətbiq edir. |

| **Modulun adı: Peşə etikası** |
|---|
| **Modulun kodu: 6** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə peşəkarlığın əsas |

| |
|---|
| prinsiplərini biləcək və vaxtdan səmərəli istifadə etməyi, qrup şəklində işləməyi və iş yerində mövcud davranış qaydalarını təhlil etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Peşəkarlıq prinsiplərini bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Peşəkarlıq anlayışının nə olduğunu müəyyən edir. |
| 2. Peşəkarlığın əsas kriteriyaları izah edir. |
| 3. Peşəkar davranışın əsas meyarlarını izah edir |
| 4. Peşəkarlığın karyera inkişafındakı rolunu dərk edir. |
| **Təlim nəticəsi 2: Vaxtdan səmərəli istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Vaxt anlayışını və onun əhəmiyyətinin nədən ibarət olduğunu sadalayır. |
| 2. Vaxtın idarə olunmasındakı əsas yanaşmaları təhlil edir. |
| 3. İdarəetmə funksiyaları və vaxtın idarə olunması arasında əlaqəni izah edir. |
| 4. Vaxtdan səmərəli istifadəyə mane olan əsas əngəlləri aradan qaldırma üsullarını sadalayır. |
| 5. Fərdi vaxt planlaşdırma üsullarını nümayiş etdirir. |
| **Təlim nəticəsi 3: Qrup daxilində səmərəli işləməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Öz peşəsi ilə bağlı qruplarda necə işlədiyini izah edir. |
| 2. Səciyyəvi qrup işlərində qrupdakıların rollarını təsvir edir. |
| 3. Qrup işində öz şəxsi rolunu təhlil edir. |
| 4. Öz peşəsi ilə bağlı qrup işində problemlərin nümunələrini nəzərdən keçirir. |
| 5. 4-cü qiymətləndirmə meyarında müəyyən edilən problemlərin həllinə necə kömək edə biləcəyini təsvir edir. |
| **Təlim nəticəsi 4: İş yerində davranış qaydalarını təhlil etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Etik davranışın hansı mənanı ifadə etdiyini  nümayiş etdirir. |
| 2. İş etikası anlayışını və fərdi etik davranışların nə olduğunu izah edir. |
| 3. Müəssisə və təşkilatlarda gündəlik etik davranış qaydalarını sadalayır. |
| 4. Ətraf mühiti bir işçi kimi  necə qoruya biləcəyini təsvir edir . |
| 5. Müəssisə və təşkilatlarda davranış qaydalarının idarə olunması prinsiplərini müəyyənləşdirir. |

| |
|---|
| **Modulun adı: Sahibkarlıq** |
| **Modulun kodu: 7** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə sahibkarlıq ideyalarını müəyyənləşdirib qiymətləndirməyi, ideyaların həyata keçirilməsi üçün lazımi resursları müəyyənləşdirib toplamağı, və ideyaları həyata keçirilməsi yollarını göstərməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Sahibkarlıq ideyalarını, imkanlarını müəyyən etməyi və qiymətləndirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Sahibkarlığın mahiyyətini izah edir. |
| 2. Sahibkarlıq fəaliyyəti üçün əlində olan imkanları müəyyən edir. |
| 3. Sahibkarlıq ideyalarını müəyyənləşdirir. |
| 4. Sahibkarlıq ideyasını qiymətləndirir. |
| **Təlim nəticəsi 2: Sadə biznes layihəsini hazırlayır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Biznes planın məqsəd və strukturunu izah edir. |
| 2. Marketinq planını hazırlayır. |
| 3. Satış və insan resurslarını planlaşdırır. |
| 4. İnvestisiya və maliyyə planını hazırlayır. |
| 5. Büdcəni planlaşdırır. |
| 6. Qeyri-müəyyənlik və risk hallarında necə qərar qəbul edəcəyini təsvir edir. |
| **Təlim nəticəsi 3: Sahibkarlıq ideyalarını necə həyata keçirməli olduğunu göstərir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Yaradılan müəssisənin hüquqi məsələlərini təsvir edir. |
| 2. Sahibkarlıq prosesində başqaları ilə səmərəli əməkdaşlıq üçün nə edəcəyini təsvir edir. |
| 3. Biznes plan hazırlanmasından sonrakı addımlarını müəyyən edir |

| |
|---|
| **Modulun adı: Estetika və mədəni özünüifadə** |
| **Modulun kodu: 8** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə Azərbaycan yazıçıları və rəssamlarının əsərlərini təhlil etməyi, Azərbaycan mədəniyyətini təqdim etməyi, iş şəraitində fikrini düzgün və mədəni tərzdə çatdırmaq üçün maraqlı bədii ifadə tərzi seçməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Azərbaycanın mədəniyyət və incəsənət xadimlərinin əsas əsərlərini şərh** |

| |
|---|
| **edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Azərbaycanın 3 görkəmli yazıçısının əsərlərini təhlil edir. |
| 2. Azərbaycan musiqi sənətinin 3 görkəmli nümayəndəsinin yaradıcılığını təhlil edir. |
| 3. Azərbaycanın 3 görkəmli vizual rəssamının əsərlərini təhlil edir. |
| **Təlim nəticəsi 2: Dünya incəsənət nümunələrini və məşhur mədəniyyət və incəsənət xadimlərinin əsərlərini şərh edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Dünyaca məşhur 3 mədəniyyət sahəsini müəyyən edir. |
| 2. Mədəniyyət sahələri haqqında məlumatları təhlil edir. |
| 3. Seçilmiş mədəniyyət sahələrinin şifahi təqdimatını verir. |
| 4. Başqalarına mədəniyyət sahələrinin təqdim edilməsinə dair konstruktiv rəy verir . |
| 5. 3 mədəni sahənin yazılı təqdimatını hazırlayır. |
| **Təlim nəticəsi 3: Kreativlik və estetika anlayışlarını təhlil edərək onlardan istifadə edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Estetika anlayışını təhlil edir. |
| 2. Kreativlik anlayışını təhlil edir. |
| 3. Estetika anlayışından istifadə edərək kretiv ideyalar təqdim edir. |
| **Təlim nəticəsi 4: Etiket və nəzakət qaydalarını təhlil edərək onlardan istifadə edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Ölkəmizə xas nəzakət qaydalarını şərh edir. |
| 2. İş yerində etiket qaydalarını tətbiq edir. |
| 3. Ayrı-ayrı ölkələrdə istifadə edilən etiket və nəzakət qaydalarını təhlil edir. |

| |
|---|
| **Modulun adı: Fiziki tərbiyə** |
| **Modulun kodu: 9** |
| **Modulun ümumi məqsədi:** Bu modul tamamlandıqdan sonra tələbə tərbiyəvi prosesdə sağlamlığın yüksəldilməsi, peşə xəstəliklərinin qarşısının alınması, pis vərdişlər, fərdi fiziki inkişaf və sağlam fiziki həyat haqqında zəruri məlumatı biləcək və dövlət standartında müvafiq təlimlərlə nəzərdə tutulan fiziki standartları yerinə yetirmək üçün fərdi olaraq seçilmiş kompleks sağlamlıq və gimnastika məşğələlərini həyata keçirməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1**: **Hərəki vərdiş və bacarıqları formalaşdıran müxtəlif statik və dinamik** |

| |
|---|
| hərəkətləri sadə üsullarla icra edir. |
| **Qiymətləndirmə meyarları** |
| 1. Hərəkətlərin sağlamlaşdırıcı və inkişafetdirici təsirini izah edir. |
| 2. Hərəkətlərin icra şəraiti və icra üsulunun təkmilləşdirilməsi barədə müzakirə aparır. |
| 3. Şəxsiyyətin hormonik inkişafını təsvir edir. |
| 4. Fiziki tərbiyə üzrə nəzəri bilikləri izah edir. |
| **Təlim nəticəsi 2: Fiziki tərbiyə prosesində intizam və rejim qaydalarına əməl edir, birgə fəaliyyət bacarıqları nümayiş etdirir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Aktiv hərəkətlərlə bağlı bacarıq və vərdişlərini nümayiş etdirir. |
| 2. Aktiv hərəkətlərin icrasında əlverişli üsullarından istifadə edir. |
| 3. Aktiv hərəkətlərinə nəzarət edir. |
| 4. Şəraitə uyğun ilkin tibbi yardım göstərir. |
| 5. Bərpaedici vasitələrdən səmərəli istifadə edir. |
| **Təlim nəticəsi 3**: **İdman oyunlarını, o cümlədən milli idman oyunlarını və onların növlərini təqdim edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Fiziki hazırlığını artırmaq üçün aktiv hərəkətlərdən və xüsusi vasitələrdən müntəzəm istifadə edir. |
| 2. Yaş qrupuna müvafiq hərəkətlərə qadir olduğunu nümayiş etdirir. |
| 3. Hərəkətlərin icrası zamanı əlverişli metodlar tətbiq edir. |
| 4. Aktiv hərəkətlərə qadir olduğunu nümayiş etdirir. |

| |
|---|
| **Modulun adı: Çağırışaqədərki hazırlıq** |
| **Modulun kodu: 10** |
| **Modulun ümumi məqsədi:** Bu modul tamamlandıqdan sonra tələbə dövlət təhlükəsizliyinin tarixi və hüquqi əsasları, sıra və intizam nizamnamələrinin ümumi müddəalarını biləcəkdir. |
| **Təlim nəticəsi 1: Azərbaycan Respublikasının Silahlı Qüvvələrində istifadə olunan hərbi texnika və sursatlar haqqında zəruri məlumatlara malik olduğunu nümayiş etdirir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Azərbaycan Silahlı Qüvvələrinin yaradılması və inkişafı barədə məlumatları şərh edir. |
| 2. Vətənin müdafiəsində vətəndaş vəzifələrini sadalayır. |

| |
|---|
| 3. Hərbi nizamnamələrin yerinə yetirilmə məsuliyyətini dərk edir. |
| 4. Sıra və intizam nizamnamələrinin ümumi müddəalarını şərh edir. |
| **Təlim nəticəsi 2: Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin nizamnamələrində təsbit olunmuş əsas müddəaları mənimsədiyini, tibbi yardım və mülki müdafiə bacarıqlarına, topoqrafik vərdişlərə yiyələndiyini nümayiş etdirir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müasir ümumqoşun döyüşü haqqında məlumatları şərh edir. |
| 2. Müasir döyüş vasitələrini təsvir edir. |
| 3. Topoqrafiya üzrə bacarıqlarını nümayiş etdirir. |
| 4. Fövqəladə hadisələr zamanı əhalinin mühafizəsi haqqında biliklərini təsnif edir. |
| 5. Mühafizə vasitələrindən düzgün istifadə edir. |
| 6. Radiasiyaya nəzarət və kimyəvi kəşfiyyat cihazlarından istifadə edir. |
| **Təlim nəticəsi 3: Mülki müdafiə, sıra təlimi və fiziki hazırlığa aid normativləri yerinə yetirir, onların icrası zamanı qrup və komanda tərkibində əlaqəli fəaliyyət göstərir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Sağlam həyat tərzi üzrə bilikləri əlaqələndirir. |
| 2. Sağlamlığın mühafizəsi haqqında ümumi müddəaları şərh edir. |
| 3. Yaralanma və bədbəxt hadisə zamanı zərərçəkənlərə ilkin tibbi yardım göstərir. |
| 4. Fövqəladə hadisələrdə zədələnmələrin profilaktikasını və ilkin tibbi yardım qaydalarını tətbiq edir. |
| 5. Radiasiya şüalanmaları və kimyəvi zədələnmələr zamanı ilkin tibbi yardımı yerinə yetirir. |

| |
|---|
| **Modulun adı: Xalça istehsalın tarixi və texniki avadanlıqların istismarı** |
| **Modulun kodu: 11** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə Azərbaycan xalçasının növ və qrupları haqda, istehsalın planlaşdırılması, hazırlanması barədə bilir və texniki avadanlıqlardan istifadə edərək iş yerini hazırlamağı bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Xalçaların təsnifatı və fəlsəfəsini bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Xalq bədii sənətkarlığı və Azərbaycan xalçaçılığı haqqında məlumat verir; |
| 2. Azərbaycan xalçasını növlərə bölür; |
| 3. Azərbaycan xalçaçılığına daxil olan qrupları sadalayır; |
| 4. Müasir xalçaları təsvir edir; |

| |
|---|
| 5. Əl üsulu və maşınla toxunan xalçaları fərqləndirir. |
| **Təlim nəticəsi 2: İstehsalın planlaşdırılma, sənədləşdirmə işləri haqqında bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Termin və onların mənalarını müəyyən edir; |
| 2. İstehsalın planlaşdırma təlimatları sadalayır; |
| 3. Peşə xəstəlikləri və istehsal zədələnmələri haqqda məlumat verir. |
| **Təlim nəticəsi 3: Dəzgahlar haqqında bilir və onları işə hazırlamağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Dəzgahların növlərini sadalayır; |
| 2. Dəzgahların hissələri və iş prinsiplərini təsvir edir; |
| 3. Dəzgahqurmada təhlükəsizlik qaydalarına riayət edərək yaranan nöqsanları aradan qaldırır. |
| 4. Dəzgahı işə hazırlayır. |
| **Təlim nəticəsi 4: Alətlər haqqında bilir və onlarla işləməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Xalça alətlərini tanıyır; |
| 2. Alətləri işə hazırlayır; |
| 3. Alətlərdən düzgün istifadə zamanı təhlükəsizlik qaydalarına riayət edir. |

| |
|---|
| **Modulun adı: Xalçanın bədii tərtibatı** |
| **Modulun kodu: 12** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə çeşni, eskiz, koloristika barədə bilir və kompozisiya quraraq çeşnini rəngləməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Çeşni haqqında bilir və çeşnini oxumağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Rəsm və kompozisiya haqqında danışır; |
| 2. Çeşni haqqında məlumatlıdır; |
| 3. Keçmiş və müasir çeşniləri müqayisə edir. |
| **Təlim nəticəsi 2: Rəsim çəkməyi və çeşninin bədii tərtibatını bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Naxış və ornamentləri fərqləndirir; |
| 2. Çeşnini hesablayır; |
| 3. Hazır kompozisiyanı çeşniyə köçürür. |

| |
|---|
| **Təlim nəticəsi 3: Hazır çeşnini rəngləməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Rəngkarlıq haqqında məlumat verir; |
| 2. Çeşniyə əsasən rəngləri seçir; |
| 3. Çeşnini rəngləyir. |

| |
|---|
| **Modulun adı: Ərişçəkmə, küçü götürmə və dəhnədöymə** |
| **Modulun kodu: 13** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə əriş sapların növləri, ərişçəkmə üsulları, küçü oxu və dəhnədöymə barədə biləcək və təhlükəsizlik qaydalara, sanitar normalara riayət edərək ərişiçəkmə, küçü götürmə və dəhnənöymə prosseslərini texnoloji qaydada ardıcılıqla həyata keçirməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Əriş sapları barədə bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Əriş saplarının qatlarına görə növlərini və nömrəsini müəyyən edir; |
| 2. Əriş sapını sıxlığa görə təyin edir; |
| 3. Sıxlıq və ölçüyə əsasən hesablama aparır. |
| **Təlim nəticəsi 2: Ərişçəkməni bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Ərişçəkmə üsulunu təyin edir; |
| 2. Ərişçəkmə prosesində təhlükəsizlik və sanitar gigiyena qaydalarına riayət edir; |
| 3. Sıxlıq və ölçüyə görə ərişçəkməni həyata keçirir; |
| 4. Ərişçəkmədə yoxlama işlərini aparır. |
| **Təlim nəticəsi 3: Küçü götürmə üsullarını bilir və kücügötürmə prosesini həyata keçiriməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Küçü oxu barədə danışır; |
| 2. Küçü götürmədə işlədilən dükçələri hazırlayır; |
| 3. Təhlükəsizlik və sanitar gigiyena qaydalara əsaslanaraq, küçü götürmə üsullarını icra edir; |
| 4. Küçü götürmə prosesində yaranmış nöqsanları aradan qaldırır. |
| **Təlim nəticəsi 4: Dəhnədöymə üsullarını bilir və dəhnədöymədə texnoloji qaydaları həyata keçirməyi bacarır** |
| **Qiymətləndirmə meyarları** |

| |
|---|
| 1. Dəhnədöymə üsulları və istifadə olunan alət və materialları işə hazırlayır; |
| 2. Sünbül və sumaxı yığır; |
| 3. Yan ipləri ərişlərə bərkidir; |
| 4. Nöqsanları aşkar edir. |

| |
|---|
| **Modulun adı: Xovlu və xovsuz xalçanın toxunması** |
| **Modulun kodu: 14** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə xalça toxumaq üçün hazırlıq işlərini planlaşdıraraq xovlu və xovsuz xalça məmulatları toxumağı və yoxlayaraq təhvil verməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Xalça toxumada hazırlıq işlərini bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Xovsuz və xovlu xalçalar barədə məlumat verir; |
| 2. Təhlükəsizlik və sanitar gigiyena qaydalara uyğun iş yerini hazırlayır; |
| 3. Seçilmiş çeşniyə əsasən ipləri seçir; |
| 4. Alətləri işə hazırlayır. |
| **Təlim nəticəsi 2: Xovlu xalçada səmərəli ilməsalma metodonu bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Səmərəli ilməsalma prosesini həyata keçirir; |
| 2. Keçirilmiş alt və üst arğacları döyür; |
| 3. İlmələrin dartılma, qırxma və pardaqlama prosesini həyata keçirir; |
| 4. Əməliyyat zamanı nöqsanları aşkar edir. |
| **Təlim nəticəsi 3: Sıxlıq və yoxlama prosesini bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Sıxlıq yoxlamaq üçün vasitələri düzgün seçir; |
| 2. Toxunan xalçanın yatım sıxlığını müəyyən edir; |
| 3. Sıxlıqda yaranan nöqsanları bərpa edir. |
| **Təlim nəticəsi 4: Xovsuz xalçanı toxumağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Sadə keçirtmə üsulunu həyata keçirir; |
| 2. Sadə dolama üsulundan istifadə edir; |
| 3. Mürəkkəb dolama üsulu ilə xalçanı toxuyur. |

| |
|---|
| **Modulun adı: Xalçanın bərpası** |
| **Modulun kodu: 15** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə zədələnmiş xalça və xalça məmulatlarını dəzgaha bərkidərək istifadə olunmuş iplərə uyğun boyaları müəyyən edir və bərpa olunmuş çeşnəyə uyğun xalçanı toxuyub təhvil verməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Xalça və xalça məmulatlarında zədənlənməni təyin etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Nöqsanın yaranma səbəbini təyin edir; |
| 2. Xüsusi alət və avadanlıqları seçir; |
| 3. İstifadə ediləcək materialları hazırlayır. |
| **Təlim nəticəsi 2: Xalça iplərini boyamağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Zədələnmiş xalçanı dəzgaha bərkidir; |
| 2. Zədələnmiş iplərə uyğun boyaları müəyyən edir; |
| 3. Rənglərə uyğun ipləri boyayır. |
| **Təlim nəticəsi 3: Bərpa işlərini bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Zədələnmiş hissəni sökür; |
| 2. Əriş saplarını bərpa edir; |
| 3. Çeşniyə uyğun xalçanı toxuyur; |
| 4. Bərpa olunmuş məmulatı təhvil verir. |

| |
|---|
| **Modulun adı: Xalçanın təhvil verilməsi** |
| **Modulun kodu: 16** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə toxunmuş hazır xalçanı yenidən yoxlayaraq, təmizləyərək kəsib, markalayıb təhvil verməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Xalçanın kəsilmə prosesini bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Dəzgah üzərindəki xalçanı yoxlayır; |
| 2. Xalçanın saçaq ölçüsünü təyin edir; |

| |
|---|
| 3. Kəsilmə prosesini həyata keçirir. |
| **Təlim nəticəsi 2: Hazır məhsulun yenidən ölçmə prosesini bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Kəsilmə prosesində təhlükəsizlik qaydalarına riayət edir; |
| 2. Kəsilmiş xalçanı yenidən yoxlayır; |
| 3. Yaranan qüsurları aradan qaldıraraq xalçanı pardaqlayır. |
| **Təlim nəticəsi 3: Hazır məmulatı təmizləyərək təhvil verməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Standarta uyğun məmulatı markalayır; |
| 2. Son nəzarətdən keçmiş məmulatı təhvil verir; |
| 3. Sanitar və gigiyenik qaydalara əsasən iş yerini təmizləyir. |

| |
|---|
| **Modulun adı: İstehsalat təcrübəsi** |
| **Modulun kodu 17** |
| **İş yerində öyrənmənin ümumi məqsədi:** İstehsalat təcrübəsində tələbə istehsalat təcrübəsində gündəlik iş planını tərtib edir,  alət və avadanlıqları seçir, sexdə təhlükəsizlik və sanitaq gigiyenik qaydalara riayyət edərək, verilən tapşırığı yerinə yetirməyi bacaracaqdır. |
| **Hüquqi şərtlər və müqavilə:** |
| **Təlim nəticəsi 1: Sexdə verilən tapşırıqları yerinə yetirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Sexdəki şəraitlə və texniki avadanlıqlarla tanış olur; |
| 2. Sex daxili təhlükəsizlik qaydalarına riayət edir; |
| 3. Ərişçəkmə zamanı verilən vəzifələri icra edir; |
| 4. Küçü götürmə prosesini həyata keçirir; |
| 5. Dəhnəni döyür. |
| **Təlim nəticəsi 2: Xalça məmulatların  toxunmasını bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. İlmə salır; |
| 2. Ərişlərin arasından alt və üst arğacları keçirərək döyür; |
| 3. Xalçanın qırağını bükür; |
| 4. Xovu darıyaraq qırxır. |

| Təlim nəticəsi 3: Xalçada tamamlama işlərini həyata keçirməyi bacarır. |
|---|
| Qiymətləndirmə meyarları |
| 1. Xalçanın kəsilməsini həyata keçirir; |
| 2. Hazır məmulatda təmizləmə işləri aparır; |
| 3. Xalça saçaqlarına dövrə vurur. |

| Modulun adı: İstehsalat təlimi |
|---|
| Modulun kodu : 19 |
| **Təlim nəticəsi 1: Xalça emalatxanasında işi  təşkil edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Təlükəsizlik texnikası qaydalarına əməl etməklə iş yerini təşkil edə bilir. |
| 2. Alət və avadanlıqlardan əmək təhlükəsizliyinə riayət etməklə istifadə edir. |
| 3. Xana arxasında işi təşkil edən zaman təhlükəsizlik qaydalarına riayət edir |
| **Təlim nəticəsi 2: Xalça toxumağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Xalça toxumaq üçün dəzgahı(xanani)hazır vəziyyətə gətirməyi bacarır. |
| 2. Əriş çəkməni yerinə yetirir. |
| 3. Xalçaya çeşnisinə uyğun olan sapları seçir ,toxuma üçün hazır vəziyyətdə yerləşdirir.. |
| 4. Çeşniyə əsasən xalçanı toxumağı bacarır. |
| 5. Ərişi xanada önə çəkməyi ,arxaya ötürməyi bacarır.. |
| 6. Xalçanı töxuyur. |
| **Təlim nəticəsi 3: Xalçada tamamlama işlərini həyata keçirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Xalça toxuma zamanı baş verən nöqsanları seçə bilir. |
| 2. Dəhnə döymənin aparılmasında məqsədi başa düşür. |
| 3.Xalçada sıxlığı təyin edir. |
| 4.Xalçada tamamlama işini yerinə yetirir. |

## Təhsil proqramlarına dair qeydlər

1. Ümumi orta təhsil bazasından qəbul olunmuş və texniki peşə təhsili ilə yanaşı, tam orta təhsil alanlar üçün təşkil edilən qruplarda peşə təhsilinin dövlət standartında göstərilmiş “Ana dilində ünsiyyət” səriştəsi “Azərbaycan dili”, “Xarici dildə ünsiyyət” səriştəsi “Xarici dil”, “İnformasiya texnologiyaları” səriştəsi “İnformatika”, “Hesablama əməliyyatlarını yerinə yetirmə” səriştəsi isə “Riyaziyyat” fənni proqramına inteqrasiya olunmuş şəkildə, həmçinin ixtisasın tələbləri nəzərə alınmaqla uyğunlaşdırılmış proqram əsasında tədris edilir.
2. Tələbələrin sayı 15 (on beş) və daha çox olan qruplarda müvafiq maddi-texniki baza və ixtisas müəllimləri olduğu halda aşağıdakı fənlərin tədrisi 2 (iki) qrupa bölünə bilər:
   2.1.tədris digər dillərdə aparılan siniflərdə “Azərbaycan dili - dövlət dili kimi”;
   2.2.tədris dilindən asılı olmayaraq bütün siniflərdə “Xarici dil”, “Fiziki tərbiyə”.
   2.3.“İnformatika” fənni üzrə praktiki məşğələlər.
3. İnformatika kabineti olmayan peşə təhsili müəssisələrində “İnformatika” fənni üzrə praktik məşğələ keçirilmir.
4. “Xarici dil” fənnində tədrisi nəzərdə tutulan xarici dilin seçimi zamanı tədris qruplarında təhsil alan tələbələrin mütləq çoxluğunun nəzərə alınaraq ümumtəhsil pilləsində təhsil aldıqları “əsas xarici dil” əsas götürülür.
5. Tədris ilinin birinci yarısında qrupda tələbələrin sayının azalması tədris planı ilə müəyyən edilmiş müvafiq fənlərin tədrisində qrupun iki qrupa bölünməsinə məhdudiyyət yaratmır.
6. Pilot peşə təhsil müəssisələrində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 mart tarixli 86 nömrəli qərarı ilə təsdiq edilmiş “Peşə təhsili müəssisələrinin ayrı-ayrı peşə istiqamətləri üzrə tədris qruplarında orta sıxlığın müəyyən edilməsi haqqında” qərarın 3-cü bəndinə uyğun olaraq tədris qruplarında təhsilalanların sayı 16 nəfərdən çox olduqda, laboratoriya və istehsalat təlimi dərslərində qruplar 2 yarımqrupa bölünə bilər. Pilot peşə təhsil müəssisələrinin siyahısı Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən müəyyən edilir.
7. Pilot peşə təhsili müəssisələrində və pilot layihələrdə “Peşə təhsili haqqında” qanunun 11.2. maddəsinə müvafiq olaraq işəgötürənlərin istehsalat təcrübəsinə rəhbər təyin etdiyi mütəxəssislərə təhsil müəssisəsi tərəfindən təcrübə saatları üçün nəzərdə tutulmuş haqq ödənilə bilər. Pilot peşə təhsil müəssisələri və pilot layihələrin siyahısı Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən müəyyən edilir.
8. Nəqliyyat vasitələri sürücülərinin hazırlanması həyata keçirən ixtisaslar üzrə tədris Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli qərarı ilə təsdiq edilmiş “Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə” (mövcud dəyişikliklərlə) əsasında, həmçinin

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırılmış, Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş müxtəlif kateqoriyalı avtomobil nəqliyyatı vasitələri sürücülərinin hazırlanması üçün mövcud tədris plan və proqramlarına uyğun aparılır.

9. Traktorlar və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün sürücü hazırlayan ixtisaslar üzrə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının 30 may 2012-ci il tarixli 05/2012-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Traktorlar və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün imtahanların qəbulu və sürücülük vəsiqəsinin verilməsi haqqında təlimat” (mövcud dəyişikliklərlə) və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli qərarı ilə təsdiq edilmiş “Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə” (mövcud dəyişikliklərlə) əsasında, həmçinin traktor və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün sürücülərin hazırlanması və onların ixtisasının artırılması proqramı üzrə təlim kursunun tələblərinə uyğun aparılır.
10. Dual və axşam qrupları üçün hazırlanmış tədris planları tətbiq edilən peşə təhsil müəssisələri və qrupların (ixtisasların) siyahısı Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən müəyyən edilir.
11. Kənd təsərrüfatı istiqaməti üzrə olan ixtisasların bəzilərində seçmə modulu kimi təqdim olunan modullar seçilərkən regionun iqtisadi xüsusiyyəti nəzərə alınır.
12. STEM Mərkəzi yaradılmış peşə təhsil müəssisələrində tədris olunan bütün ixtisaslar üzrə həftədə 2 (iki) saat olmaqla “Stem” fənni əlavə olaraq tədris olunur.